# Peyğəmbərliyin sonu

---

<"xml encoding="UTF-8?>

Peyğəmbərliyin sonu

Quran

Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. (Oğul odur ki, kişinin" öz belindən əmələ gələ!) Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin [sonuncusudur. Allah hər şeyi biləndir!"[1

Hədis

Rəsuli əkrəm (s): (ilahi) Peyğəmbərlərin birincisi Adəm, sonuncusu [Məhəmməddir.[2

Rəsuli əkrəm (s) : Mənim məsəlim Peyğəmbərlərin arasında o şəxsin məsəli kimidir ki, bir ev tikib və onu yaxşı, kamil və gözəl yaradıbdır, təkcə bir kərpic yerini boş saxlayıbdır. Camaat o evin ətrafında fırlanır və ondan xoşları gəlir, (amma) deyirlər ki, kaş bu bir kərpicin yeri də kamil olaydı. Mən Peyğəmbərlərin arasında o [kərpic misalındayam.[3

[Rəsuli əkrəm (s): Mən Fateh[4] və xatəm göndərilmişəm.[5

Rəsuli əkrəm (s): Tezliklə mənim ümmətimin arasında otuz yalançı peyda olacaq ki, hamısı Peyğəmbərlik iddiası edəcəklər, halbu ki, Peyğəmbərlərin sonuncusu [mənəm və məndən sonra heç bir Peyğəmbər yoxdur.[6

Rəsuli əkrəm (s): Ey camaat! Məndən sonra Peyğəmbər yoxdur Mənim sünnəmdən (qanunumdan) sonra heç bir sünnə yoxdur. Hər kəs nübüvvət iddiası [edə, onun iddiası və bidəti odda olacaqdır.[7

[Rəsuli əkrəm (s): Mən Peyğəmbərlərin sonuncusuyam.[8

Rəsuli əkrəm (s): Mən aqibəm, yəni o kəs ki, ondan sonra heç bir Peyğəmbər [yoxdur.[9

İmam Əli (ə) Peyğəmbərin (s) besəti barədə: Allahu Sübhan, Məhəmmədi (s) Peyğəmbərliyə göndərdi ki, öz vədəsinə əməl etsin və nübüvvət silsiləsini kamil [etsin.[10

İmam Əli (ə)Peyğəmbərin (s) vəsfində: Onun (Allahın) vəhyinin əmanətdarı, elçilərinin sonuncusu, rəhmətini müjdə verən və xəşm və əzabdan [qorxudandır.[11

İmam Sadiq (ə): Allah sizin Peyğəmbərinizin vasitəsilə Peyğəmbərlik silsiləsinə son qoydu. Buna görə də ondan sonra heç bir Peyğəmbər göndərlməyəcəkdir. Həmçinin sizin kitabınızla bütün səmavi kitablara son qoydu və sizin kitabınızdan [sonra heç bir səmavi kitab nazil etməyəcəkdir.[12

İmam Sadiq (ə): Məhəmməd (s) gəldi və öz Quran, şəriət və təriqətini gətirdi. Onun dininin halal etdikləri qiyamət gününə qədər halal və haram etdikləri qiyamət [gününə qədər haramdır.[13

Səhih Müslüm Səid ibni Müsəyyibdən, oda Amir ibni Səd ibni Əbu Vaqqasidən və o, atasından belə nəql edir: Allahın Rəsulu (s) Əliyə (ə) buyurdu: "Sən mənim üçün Harunun Musaya olan mənzilət və məqamı kimisən, bu fərqlə ki, məndən sonra [Peyğəmbər yoxdur."[14

---

Əhzab surəsi, ayə 40 – [1]

Ələvail, səh 39, Kənzül ummal, cild 11, səh 480, hədis 32269 – [2]

Sünənüttermizi, cild 5, səh 586, hədis 3613, Müsnədi ibnhənbəl, cild 4, səh 21, hədis 11067 - [3]

Fateh" Peyğəmbərin (s) adlarından biridir. O, iman qapılarını fəth etdiyi üçün, Allah onu öz" - [4] xalqının arasında hakim qərar verdiyi üçün və açılmayan elimləri açdığı üçün bu adla (adlandırılmışdır.(Məcməül- bəhreyn, "Fəth" ibarəsi

Əlmüsənnif Əbdürrəzzaq, cild 6, səh 113, hədis 10163 və cild 11, səh 111, hədis 10062, - [5] Kənzül- ümmal, cild 11, səh 425, hədis 31994

Sünəni ibni Davud, cild 4, səh 98, hədis 4252, Müsnədi ibni Hənbəl, cild 8, səh 326, hədis - [6] 22458, Əlmüstədrək əl- əssəhiheyn, cild 4, səh 53, hədis 4390, Kənzul- ümmal, cild 11, səh 367, hədis 31761

Əl- Əmalil Müfid, səh 53, hədis 15, Mişkatul- ənvar, səh 255, hədis 751, Biharul- ənvar, cild - [7] 22, səh 475, hədis 24

Üyunil- əxbari- Riza, cild 2, səh 74, hədis 345, Biharul- ənvar, cild 39, səh 36, hədis 5 - [8]

Əttəbəqətul- kübra, cild 1, səh 105 - [9]

Nəhcülbəlağə, xütbə 1, Biharul- ənvar, cild 11, səh 61, hədis 70 - [10]

Nəhcül- bəlağə, xütbə 173, Biharul- ənvar, cild 34, səh 249, hədis 1000 - [11]

Kafı, cild 1, səh 269, ç 3 - [12]

Kafı, cild 2, səh 17, hədis 2, Biharul- ənvar, cild 16, səh 354, hədis 38 - [13]

Səhih Müslüm, cild 4, səh 1870, hədis 30, Fəzailüssəhabə, libni Hənbəl, cild 2, səh 633, - [14] hədis 1079, Xəsaisü Əmirəlmöminin- Nəsai, səh 111, hədis 50, Əmalit- tusi, səh 227, hədis 399